# Azərbaycan COVİD-19-la mübarizədə adekvat tədbirlər görməyi bacarmışdır

***Ötən ilin sonlarından başlayaraq, bütün dünyanı qorxu və təşvişə salan yeni koronavirus infeksiyasının doğurduğu ciddi təhlükə, təəssüf ki, hələ də tamamilə sovuşmayıb. Bir sıra ölkələrdə yoluxma halları artdığından yenidən sərt karantin qaydaları tətbiq etməyə başlayıblar. Planetimizdə COVID-19 pandemiyası başlanan ilk günlərdən xalqımızın müdrik lideri Prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan dövləti və hökuməti təhlükənin miqyasını və mümkün fəsadlarını düzgün qiymətləndirdi, bu çətin problemin həlli ilə bağlı adekvat tədbirlər görməyə başladı. Zaman bu yanaşmanın düzgün olduğunu sübut etdi.***





Reallıq budur ki, Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizdə infeksiyanın kütləvi yayılmasının qarşısını almaq üçün qısa müddət ərzində ciddi önləyici tədbirlər görüldü, yeni modul xəstəxanalar inşa edildi. Yüz minlərlə imkansız ailəyə maddi yardımlar göstərildi və bu proses bu gün də davam edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bir ana, ailə başçısı kimi çox kövrək və səmimi sözlərlə bir neçə dəfə xalqa müraciət etdi. Dedi ki, Azərbaycan insanı üçün özgə dərdi olmur. Bu çətin mübarizədə səylərimizi mütləq birləşdirməliyik. Axı, biz birlikdə daha güclüyük!

Bəli, biz bir dövlət və millət olaraq, ən taleyüklü dönəmlərdə güc və səylərimiz birləşməyi bacardığımızı sübut etdik. Xalqımız gördü və bu gün də müşahidə edir ki, onun dövləti və lideri ən ağır və çətin məqamda belə onun yanındadır. Bu gün hər birimizin qəlbində dərin inam hökm sürür ki, dövlətimizin, xalqımızın birgə səyləri ilə, inşallah, biz bu gözəgörünməz bəladan qurtulacağıq. Bunun üçün isə bundan sonra da hər birimizin məsuliyyətli olmağımız lazımdır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbərliyi dəfələrlə Azərbaycan dövlətinin bu istiqamətdə həyata keçirdiyi tədbirləri nümunə hesab edib. Yeri gəlmişkən, Azərbaycan hökuməti pandemiyadan ciddi zərər çəkən bir çox yaxın-uzaq ölkələrə tibbi dava-dərman və avadanlıqlarla təmənnasız yardım etmişdir.

Hər bir müharibə sonda sülhlə bitdiyi kimi, bəşəriyyətin COVID-19 adlı kabusa qarşı mübarizəsinin də qələbə ilə başa çatacağına ümid böyükdür. Yeri gəlmişkən, bu günlərdə ÜST rəhbərliyi son bir həftə ərzində Yer kürəsində pandemiyanın yayılma tempinin aşağı düşdüyünü göstərib.

Beynəlxalq qurumun ötən həftəyə aid hesabatında bildirilir ki, son 7 gün ərzində dünya üzrə 1,7 milyon yeni yoluxma və 39 min ölüm halı qeydə alınıb. Bu isə öncəki həftə ilə müqayisədə yoluxmalarda 5, ölüm hallarında isə 12 faiz azalma deməkdir. Cənub-Şərqi Asiya və Şərqi Aralıq dənizi regionları istisna olmaqla, dünyanın bütün regionlarında yoluxma hallarında azalma müşahidə olunub.

Hesabatda sonra qeyd edilib ki, dünyada koronavirus pandemiyasından ən çox əziyyət çəkən ölkələr hələ də Amerika qitəsi ölkələridir. Yeni yoluxma hallarının yarısı və ölüm hallarının 62 faizi bu qitədəki ölkələrin payına düşür. Lakin öncəki həftə ilə müqayisədə yeni yoluxmalar 11 faiz, ölüm halları isə 17 faiz azalıb. Qeyd edək ki, hazırda dünyada koronavirusa yoluxanların sayı 23 milyon, ölüm halları isə 800 mindən yuxarıdır.

Azərbaycanda koronavirusla mübarizədə müsbət tendensiya müşahidə olunur. Belə ki, son bir ayda həm yoluxma, həm də ölüm hallarının sayı aşağı düşməkdədir. Təbbi ki, bütün bunlar görülən işlərin, çəkilən zəhmətin, edilən çağırışların və tətbiq olunan qadağaların hesabına qazanılıb.

Bakı Tibb Universitetinin professoru, tibb elmləri doktoru Anar Ağayev hesab edir ki, əgər Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən vaxtında sərtləşdirilmiş və xüsusi karantin rejimi, qadağalar, məhdudiyyətlər tətbiq edilməsəydi, həmçinin görülən saysız-hesabsız işlər, atılan addımlar olmasaydı, bu gün tamamilə arzulamadığımız, qətiyyən görmək istəmədiyimiz acı bir mənzərə ilə üz-üzə qalardıq.

Lakin təəssüf ki, qanunlara etinasızlıq, biganəlik nümayiş etdirənlər də tapılır. "Optimist" Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin sədri Habil Niftalı düşünür ki, bu gün kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı karantin qaydalarına birmənalı şəkildə əməl etməlidir. Bu, bizim vətəndaşlıq borcumuz və vəzifəmizdir. Hamı qanun qarşısında bərabər, eyni hüquqlara malikdir.

Məlum olduğu kimi, bu il avqustun 21-dən etibarən bütün müsəlman dünyasında olduğu kimi, Azərbaycanda da Məhərrəmlik ayı başlanıb. Bu dəfə Məhərrəmlik ayı koronavirus pandemiyası dövrünə təsadüf edib. Xatırladaq ki, əvvəlki illərdə ibadətlər, dualar məscidlərdə, kütləvi mərasimlərdə icra olunurdusa, hazırda pandemiya səbəbindən kütləvi tədbirlərin keçirilməsi məhdudlaşdırılıb.

Bunun səbəbi bəllidir. Belə ki, Məhərrəmlik ayında kütləvi dini tədbirlərin, ayinlərin keçirilməsi ölkədə yeni növ koronavirusla mübarizədə əldə edilmiş uğurlara zərbə vura, vəziyyətin yenidən pisləşməsinə, karantin rejiminin daha da uzanmasına və ya yenidən sərtləşdirilməsinə səbəb ola bilər.

Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü, millət vəkili Ceyhun Məmmədov bildirib ki, insan sağlamlığının qorunması dinimizin əsas şərtlərindən biri olduğundan və onun yerinə yetirilməsi ilə bağlı hər birimizin üzərinə böyük məsuliyyət düşdüyündən, karantin qaydalarına əməl etmək də hər birimizin vətəndaşlıq borcudur.

Milli Məclisin deputatı deyib: "Hər kəsə məlumdur ki, hazırda dünyanı bürüyən virus bütün sahələrdə problemlər yaratdığı kimi, dini mərasimlərin də keçirilməsinə müəyyən məhdudiyyətlər gətirmişdir. İnsanların kütləvi məkanlarda toplaşması virusun yayılmasına və yoluxmanın sürətlənməsinə səbəb olur. Bu cür məkanlarda əhalinin sağlamlığı üçün ciddi təhlükə var. Əhaliyə müraciət edərək, operativ qərargahın tövsiyələrinə ciddi şəkildə riayət etməyə çağırıram". Cəbrayıl rayonundan olan el ağsaqqalı Hacı Oruc Quliyev isə bildirdi ki, bu il məhərrəmlikdə məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməməsi qərara alınıb. Biz dindarlar da vətəndaşlarımızın həyat və sağlamlığı naminə hökumətimizin bu qərarına hörmətlə yanaşırıq. Bu çətin günlərdə hamı səbr və təmkin nümayiş etdirməlidir.

Sonda bir daha vurğulamaq istərdim. Hər qaranlıq gecənin bir aydın səhəri olur. Vəba, taun, ispan qripi, başqa dəhşətli epidemiyalar kimi, COVID-19-da bəşər övladının ağlı, zəkası, əzmi qarşısında mütləq təslim olacaq. Ümid heç vaxt ölmür!

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***